**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№266/1** **30 sentyabr 2015-ci il**

**Audit komitəsi haqqında nümunəvi Əsasnamənin hazırlanması barədə**

Ölkəmizdə şəffaflığın artırılması, korporativ idarəetmənin normativ bazasının təkmilləşdirilməsi, iqtisadi subyektlərin maliyyə hesabatlarının auditinin təşkili işinin təkmilləşdirilməsi məqsədilə, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2014-cü il 16 dekabr tarixli 258/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.4 "Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması" bəndində nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar təsdiq edilmiş plan-proqramın 2-ci «Audit komitəsi haqqında nümunəvi Əsasnamənin hazırlanması» bəndinin icrası ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbovun təqdim etdiyi "Audit komitəsi haqqında nümunəvi Əsasnamə"nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Audit komitəsi haqqında nümunəvi Əsasnamə” təsdiq edilsin (əlavə edilir).
2. Auditorlar Palatasının Aparatının rəhbəri Q.Bayramova və sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbova tapşırılsın ki, ölkədə korporativ idarəetmə mədəniyyətinin yüksəldilməsi, onun metodik təminatının yaxşılaşdırılması, təsərrüfat subyektlərində, idarə və müəssisələrdə audit işinin təşkilinin təkmilləşdirilməsi məqsədilə “Audit komitəsi haqqında nümunəvi Əsasnamə”nin xidməti istifadə üçün Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına, Əmlak Məsələləri Dövlət Komitəsinə, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə, Azərbaycan Daxili Auditorlar İnstitutuna, habelə sərbəst auditorlara və auditor təşkilatlarına çatdırılmasını təşkil etsinlər.
3. Bu Əsasnamənin mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi və “İqtisadiyyat” qəzetində dərc etdirilməsi məqsədəmüvafiq hesab edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**